*AMEA Filologiya və sənətşünaslıq, 2024, № 1* *ISSN 2663-4368*
*Səhifə: 179-187* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2024.1.179*

# Azərbaycan folklorunda əcdad kultu

**Zümrüd Mənsimova**
AMEA İctimai Elmlər Bölməsi
E-mail: zumrudibrahimqizi@gmail.com

**Annotasiya.** Məqalədə Azərbaycan xalqının ata-baba ruhuna, əcdad kultuna hörmətinin təzahürü araşdırılır. Azərbaycan mərasim folklorunda, adətlərində geniş yer tutan ağsaqqal sözünə verilən dəyərdən söz açılır. Əcdadları tanımaq üçün hər nəslin gənclərinin yeddi arxa dönənini tanıması vacib şərtlərdən biri kimi əsas götürülür. Azərbaycan xalqının ənənəsində ağsaqqal sözünə inam öz əksini tapır və kult sözünə aid olan funksiyalar tədqiq olunur.
Məqalədə həmçinin bayatılarda, xalq hikmətində, atalar sözlərində, əcdad kultunun tutduğu yeri və rolu araşdırılır. Əcdad kultuna münasibət yeri gəldikcə miflərdə, aşıq yaradıcılığında bütövlükdə Azərbaycan folklorunda nəzərdən keçirilmişdir. Xalqımızın əcdad kultuna münasibəti 30 ilə yaxın müddətdə işğal altında qalan ata-baba ocaqlarına olan münasibətdə, inamda qorunub saxlanılmışdır.
**Açar sözlər:** Əcdad kultu, ata-baba, milli dəyər, Oğuz xan, adətlər

**Məqalə tarixçəsi:** göndərilib – 13.03.2024; qəbul edilib – 01.04.2024

# The cult of ancestors in Azerbaijani folklore

**Zumrud Mansimova**
Social Sciences Division of ANAS
E-mail: zumrudibrahimqizi@gmail.com

**Abstract.** The manifestation of the Azerbaijani people's respect for the ancestor’s spirit and the word is investigated in the article. The meaning of the “elder” word which occupies a large place in Azerbaijani ritual folklore and customs is considered. The “elder” word’s value is discussed in Azerbaijani folklore. In order to recognize the ancestors it is considered as one of the important conditions that the young people of each generation should know the 7 back turns. Belief in word of “elder” is reflected in the traditions of the Azerbaijani people. If necessary these ideas are supported by collection examples. In addition the relationship of the elder cult with the investigated ancestor has been determined. The functions connected with the cult word have been investigated.
The place and role of the ancestors’ cult are also considered in the old adages, folk wisdom, and proverbs in the article. The attitude towards the ancestors’ cult has been researched in myths, works of Ashik and generally in folklore of Azerbaijan. The attitude of our people to the ancestors’ cult has been preserved in the attitude and faith towards the paternal (ancestral) hearths which were under occupation for almost 30 years
**Keywords:** ancestor cult, national value, parents, Oguz Khan, traditions

**Article history:** received – 13.03.2024; accepted − 01.04.2024

## Giriş / *Introduction*

Bir xalqı, bir dövləti, ilk öncə, onun gücüylə, milli mənəvi dəyərləri, mədəniyyəti, genetik kökü və ilk əcdad qəhrəmanları ilə tanıyırlar. Bir xalqın xalq olması üçün onun keçib gəldiyi tarixi yol ulu babalarımızdan miras qalan özünəməxsus adəti, ənənəsi olmalıdır. İlk əcdadları tanımaq üçün onların gələcək nəsillərə miras qoyduqları milli dəyərləri, dövlətçilik ənənələrini yaşatmaq və təbliğ etmək bizim həyat tərzimizə, başlıca amalımıza çevrilməlidir. Təəssüf hissilə bildirmək istəyirik ki, bugünkü nəsildə əcdadlara münasibət, ata-baba ruhuna ehtiram əvvəllərdə olduğu kimi yüksək şəkildə aşılanmır. "Əcdadın kim olub?", "Neçə arxa dönənini tanıyırsan?" və s. kimi sualları cavablandırmağa gənc nəslin nümayəndələri cavab verə bilmir və yaxud məsələn, tam xəbərsizdirlər. Bunun üçün təbliğat ilk olaraq evdə ailədən, anadan, yaxud atadan başlanmalı, valideynlər övladlarına əcdadlarını tanıtmağı özlərinə mənəvi borc bilməlidirlər ki, böyük tarixi keçmişimizi, nəsilləri, uluları unutmayaq, unutdurmayaq. Çünki cəmiyyətin, müasir insanların dəyəri onların öz soykökünə olan münasibətilə müəyyənləşir, ulu baba və əcdad bizləri soykökümüzə aparır. Bu məsələyə münasibət bildirən akademik Muxtar İmanov qeyd edir ki, *"Xalq anlayışı əcdad, ata-baba, ailə, ocaq kultu ilə birbaşa bağlıdır. "Dədə Qorqud" dastanına nəzər salsaq, burada "Oğuz eli" istilahının, ifadəsinin birinci mənası dövlətdirsə, ikinci mənası məhz eldir, folklordur. Bu toplumu həm ailə, həm də ayrı-ayrı bahadırlar və başqaları təmsil edirlər. Bu toplum qəhrəmanların and yeridir. Ulu əcdadların adı ilə təmsil olunan bu keçmişin özü də indiki yaşayan insanlar üçün bir inam yeridir, varlıqdır* [13]. Akademik qədim düşüncədə əcdad qəbrinin müqəddəs və toxunulmaz olduğunu bildirmiş, qeyd etmişdir ki, *"Əgər düşmən tərəfindən əcdadın hər hansı birinin qəbrinə toxunulursa, savaş baş verir. Bu, onu göstərir ki, toplum deyilən anlayış elə-belə anlayış deyil, dövlətçilik, etnos baxımından müqəddəs anlayışdır. Oğuz eli müqəddəs torpaqla müəyyənləşir"* [13]. Bu baxımdan əcdadı tanıtmaq məsələsində hər kəs çox ciddi və məsuliyyətli yanaşmalıdır. Məqalədə ulu əcdadlarımıza tarixdən günümüzə münasibətin necə olması, ilk insan, ilk əcdadın ifadə etdiyi məna səviyyələri, eləcə də ağsaqqalın nə səbəbdən xalqımız üçün bu qədər dəyərli olması araşdırılmışdır. Eləcə də məqamı gəldikcə kult sözünə aydınlıq gətirilmişdir.

## Əsas hissə / *Main Part*

Azərbaycan folklorunda əcdad məsələsi fundamental şəkildə araşdırılmasa da, əcdad problemi bir sıra folklorşünas alimlərin araşdırmalarında müxtəlif baxımdan tədqiq olunmuşdur. Mirəli Seyidovun "Azərbaycan mifik təfəkkürünün qaynaqları", "Azərbaycan xalqının soykökünü düşünərkən", M.H.Təhmasibin "Azərbaycan qəhrəmanlıq dastanları" kitablarında və bir sıra məqalələrdə, habelə Azad Nəbiyevin "Azərbaycan mifologiyası", "Azərbaycan xalq ədəbiyyatı", Seyfəddin Rzasoyun "Oğuz mifi və oğuznamə eposu", "Oğuz mifinin paradiqmaları" adlı araşdırmalarında, Füzuli Bayatın "Mifologiyaya giriş", Ramazan Qafarlının "Azərbaycan mifologiyası", "Azərbaycan türklərinin mifologiyası", Əfsələddin Əsgərin "Oğuznamə yaradıcılığı" kitabında, Cəlal Bəydillinin "Türk mifoloji obrazlar sistemi: struktur və funksiya", "Türk mifoloji sözlüyü", Arif Acalovun "Azərbaycan mifoloji mətnləri" tədqiqatında, Ramin Əliyevin "Azərbaycan nağıllarında mifik görüşlər", Rövşən Əlizadənin "Azərbaycan folklorunda təbiət kultları", Elçin Abbasovun "Mifoloji və dini inamlar kontekstində türk eposu, hakimiyyət simvolları və ritualları", Fidan Qasımovanın "Türk mifologiyasında mədəni qəhrəman problemi", Hikmət Quliyevin "Müdrik qoca arxetipinin semantik stukturu və paradiqmaları" monoqrafiyalarında, eləcə də Səfa Qarayevin bir sıra tədqiqatlarında bu məsələyə müəyyən qədər toxunulmuşdur. Ancaq bütün bunlara baxmayaraq, problem Azərbaycan folkloru kontekstində konkret olaraq araşdırmaya cəlb edilməmişdir.

Folklorşünas alim Seyfəddin Rzasoyun məsələyə yanaşma tərzinə diqqət etsək, görərik ki, müəllif əcdad kultunun subyekti olan əcdadları üç paradiqmada təsvir edir:

– İnsan paradiqması:

– Heyvan paradiqması,

– Təbiət obyektinin paradiqması [17].

Onun gəldiyi qənaətə əsasən, gerçək həyatda insanın törədicisi, əcdadı insan olsa da, mifoloji düşüncədə ilk əcdadlar daha çox heyvan, yaxud müxtəlif təbiət obyektləri şəklində təsəvvür olunur. Bu fikirlərə "Kitabi-Dədə Qorqud" dastanının əsas qəhrəmanları olan Basatın və Qazan xanın tez-tez öz əcdadlarının adlarını çəkmələrini nümunə göstərə bilərik. Aruz oğlu Basatın hami əcdadlarının olduğu bəlli olur.

Düşünürəm ki, dastanlarda qəhrəmanın heyvana bənzədilməsi, yaxud təbiət obyektləri şəklində təzahür olunması ulu əcdadlarımızın keçdiyi təkamül yolu totemçilik dünyagörüşüylə daha sıx bağlıdır. Lakin ilk əcdadın bəzən Bozqurda, buynuzlu öküzə və s. heyvanlara bənzədilməsi birmənalı şəkildə demək olar ki, bir xalqın, etnosun dünyagörüşü, həyat tərzi, inam tərzi ilə bağlı yaranmışdır. Buna bütün xalqlarda müxtəlif formalarda təsadüf edilir. Azərbaycan xalqının qədim inam və inanc sistemində Bozqurdun yeri və rolu böyükdür. Azərbaycan folklor mətnlərində Bozqurd daha çox xeyirxahlıq, xilaskarlıq, yolgöstərənlik, savaş simvolu kimi göstərilir. Çünki Bozqurd digər türk xalqlarında olduğu kimi, Azərbaycan xalqının da inanclar sistemi, eləcə də totemçilik dünyagörüşü ilə sıx bağlı olmuşdur. Baxmayaraq ki, bir sıra folklorşünas alimlərimiz Azərbaycan xalqının totemçilik ənənələrinin olduğunu inkar edirlər. Bozqurd miflərdə, dastanlarda daha çox xilaskarlıq və yolgöstərənlik rolunda çıxış edir. Bozqurd gücün – xilaskarlığın, qurtuluşun, dirçəlişin simvolu kimi götürülmüşdür. Məhz bu səbəbdən Bozqurd türklərdə olduğu kimi, Azərbaycan xalqının da dünyagörüşündə dərin iz salmışdır. Bununla yanaşı, folklor mətnlərində əcdad kultunu simvolizə edən bir sıra amillər də vardır:

– Dağ amili-ucalıq, xətir-hörmət anlamında;

– İlkin başlanğıcda duran Ata və ağsaqqallıq amili;

– Ağsaqqallıq – böyüklük amili;

– Soykök amili nəsil artımı anlamında;

– 7 arxa dönəni tanımaq amili.

Bütün bunlar əcdad kultunun tanınmasında, öyrənilməsində başlıca amillərdəndir. Ancaq əcdad kultunu təşkil edən ata – ilk yaradıcı kimi əsas və başlıca amildir. Ata insan paradiqması kimi əcdad kultunun əsas göstəricisidir.

"Bütün xalqların tarixində ilki yaradanın biri ata olmuşdur. Bu da daha sonra ata kultunun özəyini təşkil edən "yaradıcı ata" obrazının meydana gəlməsinə səbəb olmuşdur. Buna görə də hər bir etnosda daima ata kultu mövcud olmuşdur. Bu amil türk xalqları üçün də səciyyəvi xüsusiyyət daşıyır". Naxçıvan ərazisində aparılan qazıntılar zamanı tapılmış maddi-mədəniyyət nümunələrinə əsasən ata kultu haqqında müəyyən elmi nəticələrə gəlmək olar. Eneolit dövründə ata kultu artıq formalaşmışdır. Evin döşəməsində dəfn olunan kişi qəbirləri bu nəticəyə gəlməyə imkan verir. Eneolit dövrünün qəbir abidələrini tədqiq edərkən insanların bu dünya və o biri dünyanı idarə edən varlıqlara inandıqları aydın olur [2, s.34-275-289]. Atanın evin döşəməsində dəfn olunması onun ölümdən sonra da həmin evdə yaşayanları qoruması, onları himayə etməsi və lazım gəldikcə kömək etməsi inancından meydana gələ bilər. Qeyd edək ki, günümüzdə hələ də "ata ocağı" adlandırılan evlər ən çox həmin evi tikən atanın xatirəsini yad edir [16].

Tarixən sınanmış və müəyyən təcrübələr əsasında yaranmış hikmətli sözlərin atalar sözləri adlandırılmasının əsas səbəblərindən biri ataya olan hörmətdən irəli gəlməsidir. Qədim türklərdə olduğu kimi, Azərbaycanın bütün bölgələrində ataya hörmət edilir, sözlərinə qulaq asılır və təcrübələrinə güvənirdilər. Azərbaycanlılarda ata, baba ailədə gücü, qoruyuculuğu ilə sayın çoxalması və böyüməsini ifadə edir. El arasında ata kultu ilə bağlı zəngin nümunələr vardır və Azərbaycan mifologiyasında, ümumilikdə ümumtürk mifologiyasında böyük məna kəsb edir. Ona görə də bu hikmətli sözləri atalar sözləri adlandırırlar. Məsələn, "Atanın duası, ananın ahı yerdə qalmaz", "Ata malına göz dikən xeyir tapmaz", "Ata evin sütunudur" kimi hikmətli atalar sözləri bu səbəbdən yaranmışdır. Ata ailənin, nəslin, dövlətin yaradıcısı, başlanğıcında duran əsas qüvvə olmuşdur. Bu gün bütün müqəddəs bayramlarda evdən çıxan övlad-

ların ata ocağına yığılması da məhz həmin əcdada qoyulan hörmətin təzahürüdür.

Tədqiqatlarda insan yaradılışının əsasında duran əcdadlara müxtəlif fikirlər irəli sürülmüşdür. Bir çox alimlər ilk əcdadın əsasında soyun – kökün yaradıcısı olan fövqəltəbii gücə və enerjiyə malik olan insanın, bəziləri ilk əcdad kimi Göy Tanrını, Günəşi (İslamdan öncəki düşüncəyə əsasən) diqqət mərkəzinə gətirmiş, digərləri totem əcdadların varlığını daha önə çəkmiş, bəziləri isə dağı əsas ata başlanğıc koduna uyğun olaraq ilk əcdad kimi qəbul etmişdir. Bir çox alimlər isə ilk əcdadı Tanrı ilə əlaqələndirmiş, kimisi isə, ümumiyyətlə, başlanğıcın ana xəttindən götürüldüyünü isbat etməyə çalışmışlar. İlk insanın ana xətti ilə deyil, məhz ata xətti ilə başlaması haqqında türklərin soy kitabı olan "Şəcəreyi-Tərakimə" kitabında əks olunur. Həqq-təala mələklərə dedi: "Tozdan insan yaradıb və ona ruh verib yerdə özümün xəlifəm təyin edirəm". Sonra Adəm peyğəmbərin nəsil şəcərəsi Adəmdən Nuha kimi aydın şəkildə verilmişdir. "Adəmin ölüm vaxtı çatanda o, Şeys adlı oğluna dedi: "Məndən sonra mənim yerimə otur və törəmələrimə başçı ol". Çoxlu xeyirli məsləhətlər verib, bu dünyadan o dünyaya köçdü. Şeys peyğəmbərin bu dünyadakı hökmdarlığı doqquz yüz on iki il çəkdi. Şeys ölüm ayağında oğlu Anuşu öz yerinə qoyub dərgahına getdi. Anuş da ata və babasının qaydasına əməl edib atası kimi doqquz yüz on iki il yaşayıb haqq dünyasına köçdü. Ölərkən yerinə Kinanı qoydu. Kinan səkkiz yüz qırx il atasının yolu ilə getdi. Öz yerinə Mihlaili qoyub Tanrı dərgahına getdi. Sonra onun oğlu Exnox, sonra oğlu İdris, oğlu Matuşaleh, onun yerinə Leymak, nəhayət, Leymakın oğlu Nuh peyğəmbər atasının yerində oturdu. Göründüyü kimi, bütün hakimiyyət atadan oğula ənənə miras olaraq ötürülür. Maraqlıdır, İdrisdən Nuha kimi yaşayanların yaşı məlum deyildir [3, s.47-49].

Bütün bunlarla yanaşı, Seyfəddin Rzasoyun qeyd etdiyi kimi, insan, heyvan (totem) və təbiət paradiqması əsas amil kimi götürülməlidir. Bəzən qədim xalqlarda dağ, təpə ilk əcdad hesab edilmişdir [17]. Təbiət paradiqmasına biz demək olar ki, çoxsaylı folklor mətnlərində təsadüf edirik.

Dünya xalqlarında mifoloji baxımdan bir sıra məqamlara diqqət yetirək:

– Əski çinlilər belə hesab edirdilər ki, onları pis, yaman ruhlardan təpə, dağ qoruyur. Çinlilər yaxında təpə, dağ olmayanda, Budda məbədi tikirdilər. Bu, çox uca silindrvari tikinti (paqoda) dağı əvəz edirdi. Onlar öz imperatorlarının meyitlərinə yaman, pis ruhların əziyyət verməməsi üçün məqbərəyə beş müqəddəs dağın maketini də qoyurdular. Deməli, dağ bir çox xalqlarda müqəddəs əcdad sayılmış, insanları pis, yaman ruhlardan qorumuşdur. Dağa inam, dağa soyun kökü kimi baxmaq – Qazanı dağla əlaqələndirmişdir [7, s.106].

El arasında dolaşan bayatılarda da bunun izlərinə təsadüf edirik:

*Dağlar təzələndi,*
*Qar yağdı, təzələndi.*
*Nuh Peyğəmbər gəldi,*
*Bu dünya təzələndi.* [6, s.48]

Və yaxud

*Dağ dağ oldu,*
*Ürəyim dağ-dağ oldu,*
*Babamız ulu dağlar,*
*Dərdliyə sirdaş oldu!*

*Gələr keçər,*
*Karvanlar gələr keçər!*
*Uludan ulu dağlara,*
*Salamım dəyər, keçər!*

Və yaxud

*Görünən dağ olaydı,*
*Yar üzün ağ olaydı,*
*Kaş bu qərib bəndəyə,*
*Dağlar arxa olaydı.* [10]

Hər üç bayatıda dağların ululuğu, böyüklüyü, əzmkarlığı onun ilkin başlanğıcla əlaqəli olduğu diqqətə çatdırılır. Dağların kult səviyyəsinə yüksəldilməyi onun yenilməzliyinin, tarixi hadisələrə şahidlik etməsinin nişanəsidir. Deməli, türk xalqlarında olduğu kimi, Azərbaycan xalqının da folklorunda əcdad müqəddəs hesab edilmiş, kult səviyyəsinə yüksəlmişdir. El arasında belə bir məsəl var: "Dağlara üz çevirmək olmaz, dünyasını dəyişmiş igidlərin ruhu dağlarda yaşayar". Bölgələrimizdə qədimlərdən gələn bir adət var. Qoca nənələrimiz abır-isməti qorumaq, böyüklük, ululuq, əcdada hörmət etmək anlamında uca dağ gördükdə bu gün belə

yaşmaqlanırlar (əvvəllər, ümumiyyətlə, cavan gəlinlər də yaşmaqlanırdı). Dağ ilk başlanğıcda duran Ata qədər dəyərli hesab edilmişdir. Çünki əski inama görə atalarımızın ruhu dağlarda olmuş, dağ əyəsi daima onları izləmişdir.

Ulu babalarımız və el sənətkarlarımız da sözlərini bölüşə bilmədikdə sirrini dağlara demişlər. Bunu Aşıq Ələsgərdən başlamış bütün sənətkarların yaradıcılığında görmək mümkündür:

*İxtiyarım getdi əldən,*
*Susdu sazım, tarım dağlar!*
*Sil yaşımı, aç gözümü,*
*Sənsən havadarım, dağlar!* [1, s.230]

Nümunədən göründüyü kimi, el sənətkarı ağrılı günlərində ağrısını, sevincli anlarında sevincini məhz ululuq, böyüklük, atalıq, babalıq rəmzi olan dağla bölüşmüşdür. Sual ortaya çıxır ki, əgər dağ əcdad kultunun paradiqması sayılırsa, bəs onda insanın nəsil şəcərəsini necə adlandırmaq olar? Fikrimizcə, dağ əcdad ruhunun yaşadığı müqəddəs yer, müqəddəs məkan, igidlərin and yeri olduğu üçün simvolik məna daşımış, uca hesab edilmişdir. Bəzən bu səbəbdən ulu babalarımız ən mühüm işlərini, yığıncaqlarını dağ döşündə etmişlər. Ona görə də, dağ insanların ucalıq, paklıq rəmzi kimi əsas götürülmüşdür. İlkin başlanğıc kimi isə əcdad kultunun insan paradiqması durur.

Dağın, təpənin, ilkin başlanğıcda duran suyun, torpağın müqəddəs hesab edilməsi ilə yanaşı, əcdad kultunu işarələyən təbiətin, insanın ritual sistemində özünəməxsus yeri olmuşdur. Seyfəddin Rzasoy əcdad kultunu ritual sistemlə birbaşa əlaqələndirmiş, eləcə də bu ritual sistemin özünün də üç ünsürdən təşkil olunduğunu bildirmişdir:

1. Öləndən sonra öz yaşamını o biri dünyada sürdürən əcdad;

2. Əcdadın bu dünyada yaşayan və ona ehtiyacı olan törəmələri, nəsli;

3. O dünyadakı əcdadla bu dünyadakı törəmələr arasında əlaqə-ünsiyyəti həyata keçirən mediator.

Statuslarına görə: əcdad – ölü, onun nəsli – diri, mediator – ikili statusa malikdir: yəni o həm ölü, həm də diri ola bilir [13].

Müəllif həm də keçmişlə bu gün, o dünya ilə bu dünya arasında əcdadlar vasitəsilə əlaqə qurulduğunu bildirir. Əcdad iki dünya arasında əlaqələndirici və qoruyucu funksiyalarda təmsil olunur.

Mirəli Seyidovun qeyd etdiyi kimi, “Dünya mədəniyyətinin yaranmasında, inkişafında şərəfli, işıqlı yerlərdən birini tutan Azərbaycan xalqının soykökü – etnogenezisi çox mürəkkəb tarixi proses keçmiş, dinc yaşamaq üçün qanlı vuruşlarda, fikirlər, görüşlər, zövqlər mübarizəsində ətə-qana dolmuş, biçimlənmişdir. Azərbaycan xalqının soykökündə duranlar tarixin ən dərin qatlarından tutmuş, bu günə qədər şərəfli, dosta dost, onun acısına, sirrinə ortaq, düşmənə amansız olmuşdur” [7, s.12].

Sual oluna bilər ki, kimdir xalqın soykökündə duran tayfalar, onlar hansı kökə, soya bağlıdırlar.

Hər bir xalqın igidlik, cəsurluq, humanistlik, sədaqət, sadiqlik, səmimilik, doğruluq, düzlük kimi mənəvi keyfiyyətləri onun soykökündən, həmin soykökün başında duran ağsaqqaldan, ulu xaqanlardan qaynaqlanmışdır. Həmin əcdad sandıqları qəbilə, tayfa, el, nəsil ağsaqqalları yaxşını, böyüklüyü, ululuğu, cəsarəti, igidliyi, ərgənliyi, vətənə, elə-obaya məhəbbəti qorumuş, miras kimi gələcək nəsillərə ötürmüşdür. Hər nəsil, kök, özündən əvvəl yaşamış ulu babasını təmsil etmiş, onun ənənələrinin layiqli davamçısı olmağa çalışmışdır. Çox təəssüf ki, bu gün həmin ənənə demək olar ki, sıradan çıxmışdır. Özündən əvvəl yaşamış ulu babalarını, 7 arxa dönənini tanıyan çox az nəsillər var. Bu da çox təbii ki, nəsillərin, ulu babaların adlarının ardıcıl şəkildə arxivləşdirilməməsindən irəli gəlir. Gərək hər bir nəsil öz ulu babalarının arxivini yaddaş kimi yazsın ki, gələcək nəsillərə ötürə bilsin.

Əvvəllər əcdad dediklərimiz həm də öz yaşadığı dövrü, mühiti, tayfanı, geniş mənada, xalqı və milləti təmsil etmişlər. Hər bir xalq bütövlükdə əcdadlarıyla, soyuyla, köküylə tanınmış, başqa xalqlar arasında ulu babalarına bağlı mərdlik, cəsarət, döyüşkənlik, vətənpərvərlik, humanistlik kimi mənəvi kefiyyətlərlə bütöv olmuşdur. Məhz bu səbəbdəndir ki, əcdadlara müqəddəs varlıq kimi səcdə edilmiş, onların adı gələn yerdə bir söz iki olmamışdır.

Digər tərəfdən, ilk əcdad dedikdə ana vətən, ata-babalarımızın uyuduqları müqəddəs torpaq yada düşür. Ulu əcdadlarımızın uyuduqları məkan həmişə müqəddəs yer olaraq qalır. Torpaq,

el-oba təəssüfü də məhz bu hissdən doğur. Xalqımız nə qədər böyük, humanist, bəşəri xalq olsa, tarix boyu yadelli işğallara məruz qalsa belə, əcdadlarına və onların qoyduqları yola qarşı çıxmamışlar. Kamal Abdulla qeyd edir ki, "Xalqımız onun öncül yaradıcı şəxsləri özündə milli, dini təəssübkeşlik hissləri ilə yanaşı, bəşəri dəyərləri də yaşatmağı bacarmış və "özününkü" saydığını "özgəninki" olandan çox zaman fərqləndirməmişdir" [7]. Biz bir xalq, millət olaraq cəsarət, mərdlik, şücaət, dostluq baxımından hər şeyi qurban verərik, ancaq bir tək vətəndən pay verməyi özümüzə sığışdırmarıq. Elə məhz bu səbəb bizi illər sonra tarixi torpaqlarımıza qovuşdurdu.

Ulu babalarımız bir nəsli, bir tayfanı bəd qüvvələrdən qorumaq üçün qurbanlar kəsmiş, yoxsulların qarınlarını doyuzdurmuş ki, yurd xəta-bəladan uzaq olsun. Türk xalqlarının folklorunda qurbanvermə motivinə çox təsadüf edilir. Əslində, özümüzün olanı özgənin olandan ayırmadığımız üçün başımız çox bəlalar görmüş, tarix boyu bunun ağrısını çəkmişik.

Belə ki, Qırğızların "Manas" dastanına diqqət etsək, görərik ki, Kanıkey oğlu Semeteyin başına gələcək fəlakətlərdən qorunmaq üçün "Ağ boz beeni kesersin, Atanın ruhuna, Kurban edersin", – [1, s.68] deyir.

Əcdad ruhuna inam, sitayiş hər dövrdə olmuşdur. Bu inam, bu düşüncə tərzi əcdadlara mənsub xalqı folklorumuzda, ədəbiyyatımızda, tariximizdə, arxeologiyamızda, mifoloji düşüncəmizdə yaşamışdır. Əcdadlar mifoloji düşüncədə müqəddəs varlıqlar kimi kutlaşdırılmış, folklorumuzda sakral hesab olunmuş, tariximizdə ululuq, böyüklük kimi anlamlarında xüsusi önəm kəsb etmişdir. Qədim düşüncədə bir tayfa üçün ona rəhbərlik edən, önə aparan başçı, müasir dövrdə bir ailə, bir nəsil, bir dövlət üçün onu qoruyan, müdafiə edən, ailənin, nəslin, elin, geniş mənada, dövlətin ağsaqqalına əvəzsiz şəkildə inanılmışdır.

Deməli, mifoloji düşüncədə insanın pərəstiş sistemi əcdad kultunun yaranmasına səbəb olmuşdur. Əcdad kultuna inam ulu babalardan başlayaraq pərəstiş, nəslə, elə – tayfaya sahiblənmək kimi müqəddəs inamla bağlı olmuşdur. Bəzən inanıb pərəstiş etdiklərinə qurbanlar kəsilmişdir. Ata kultunu təmsil edən ilk əcdad tayfalara daşıdığı funksiyalara, bacarıqlara görə ad verən, önə çəkən, nizam yaradan, yurd qoruyan, ağsaqqallıq edən, sözünün kəsəri olan müqəddəs şəxsdir. Bu xüsusiyyətləri biz əcdad kultunun nümayəndəsi olan Oğuz Xaqanın şəxsiyyətində görə bilərik. Belə ki, Oğuz Xaqan ona kömək etmək istəyən qəbiləyə uyğur, düzəltdiyi arabalarda ordusunun yükünü daşıyanlara Kanqlı, yolda, ağac koğuşunda övlad dünyaya gətirən nəslə qıpçaq adı verir [4, s.13-14]. Oğuz xaqanın etdiyi doğru, xeyirxah, ağsaqqala saygı, yurdu qorumaq bacarığı, xalqa sevgisi onu müqəddəs ata kultu səviyyəsinə qədər ucaltmışdır. Bundan əlavə, mifoloji düşüncədə bir sıra sakral hesab olunan varlıqlar vardır ki, onlar insanlar tərəfindən müqəddəs hesab edilmişdir. Sual oluna bilər ki, bu müqəddəs varlıqları sakrallaşdıran hansı amil olmuşdur? Dünya və insan yaranandan həmin varlıqlara inam və etiqad olmuşdur. Həmin varlıqlar kultlaşdırılmış, toxunulmaz hesab edilmişdir. Ulu əcdadlarımız təbiət qüvvələrindən qorunmaq üçün kultlaşdırdıqları, müqəddəs hesab etdikləri varlıqların köməyinə ehtiyac duymuşlar. Bütün bu münasibətlər və pərəstiş sistemi kultu yaratmışdır. Türk xalqlarının mifologiyasında olduğu kimi, Azərbaycan mifologiyasında da əcdadlar kultuna daim inam olmuşdur. Bu kultun tarixi insanın yarandığı, təbiət hadisələri qarşısında aciz qaldığı, mədəniyyət qurmağa başladığı zamanlardan bəri paralel olaraq inkişaf etmişdir. İstənilən xalqın inanclar sisteminin araşdırılmasında əcdadlar kultunun tədqiqi vacib məsələlərdəndir. Əcdadlar kultunun ən əsas tərkib hissələrindən biri də ata kultudur. Araşdırmanın əsasında duran başlıca amil əcdaddırsa, bəs onu yaradan pərəstiş, inam sistemi olan kult nədir?

Ümumiyyətlə, kult nə deməkdir? Bu suala cavab tapmağa çalışarkən maraqlı müqayisələr və fikirlər meydana çıxır. Kult sözünün mənasını tədqiq edərkən, ilk öncə çoxmənalı bir anlayış olduğunu görərik. Mənasına aydınlıq gətirərkən isə bu sözün müxtəlif, lakin əsas bir anlama bağlı mənalarının mövcud olduğunu müşahidə edirik:

- Kult atalara pərəstiş, ata sözünün, ata ruhunun gücünə inam sistemidir.
- Bir xalqın əcdadlarına olan pərəstiş sistemidir.
- Bir xalqın mədəniyyətinin, milli mənəvi dəyərlərinin göstəricisidir.

- Bir xalqın tarixi keçmişinə bağlılığının göstəricisidir.
- Bir xalqın soykökküdür. Soykökə olan məsuliyyət və inamdır.
- Ata-babalarımızın qoyduqları adətlərə ehtiramla, sevgiylə yanaşmaq və onları qoruyaraq nəsillərdən-nəsillərə ötürüb yaşatmaqdır.
- Bir xalqın əsrlər boyu yaşatdığı, məxsus olduğu adətlərdir, mərasimdir, inam tərzidir.
- Kult bir xalqın inanclar sistemidir.
- Gəncliyin keçmiş ənənələrə inamıdır.
- Cəmiyyətin gələcəyə güvən və inam qazanmaq hissi və haqqıdır.
- Ulu babalarımıza inam və güvən yeridir.
- Xələflərin sələflərə olan güvən və etibarıdır.

Folklorşünas alim Seyfəddin Rzasoy qeyd edir ki, "Əcdad kultu" humanitar-antropoloji tədqiqatlarda işlənən kateqoriya kimi əcdad ruhlarına inamı və pərəstişi (tapınmanı) əhatə edən termindir. "Əcdad" ərəb mənşəli söz kimi "ata-babaları" bildirir [8, s.265, 381]. Kult həm də latınca "cultus" sözündən götürülmüşdür, mənası inanmaq, tapınmaqdır.

Əsrlər keçsə də, insanlar arasında kultlara olan münasibət dəyişmir. Onlar ulu babaları kimi hər ağrılı-acılı günlərində, müqəddəs hesab etdikləri günlərində, bayramlarda ata-baba gününü qeyd etməklə yanaşı, kult hesab etdikləri varlıqları da anmışlar. Bu gün Azərbaycanın bütün bölgələrində böyük təmtəraqla keçirilən Novruz bayramından bir gün öncə ərəfə gecəsi vardır ki, bu, həm də ata-baba ruhunu yadetmə günü hesab olunur. Həmin günü ocaqlar qalanır, qazanlar asılır, ölülərin ruhu şad olsun deyə, qazanlara duz atılır. Evlərin qapıları açıq qoyulur ki, ölülərin ruhları asanlıqla evlərinə gəlib ziyarət edə bilsinlər. Evdə sevinc, xoş sözlər danışılmalıdır ki, ruhlar razı getsinlər. Bayram süfrəsində evin ağsaqqalı oturardı ki, evin, ailənin bərəkəti ərşə çəkilməsin. Azərbaycanın şimal bölgəsində, xüsusən Zaqatalanın bir sıra kəndlərində Novruzda olduğu kimi, Qurban bayramında da ellikcə ziyarətlərə getmək, ölülərin adına bişirilən yeməklərdən – girs, maxara, şirniyyat, noğul və nabatları sırayla düzülüb oturan uşaqlara paylamaq adəti mövcuddur. Bu, əsrlərcə yaşayan adətlərimiz sırasına daxildir. Eləcə də ziyarətlərdə olan bütün ölü yiyələrinə dua oxunub bağışlanır. Bayram günləri ata ocağına yığılmaq adəti isə ölən ata-baba ruhunu şad etmək anlamına bağlıdır. Belə bir inam vardır ki, ata-baba ruhunu şad etmək övladlarına böyük uğur, bol ruzi verər. Qarabağda ata-baba ruhuna ehtiramın əlaməti olaraq el arasında yaşayan adətlərimiz olub. Qarabağlıların məşğuliyyət tərzi olan maldarlıqla bağlı Dağaköçmə, Köç günü, Şum bayramı, Seyrəçıxma günü kimi əcdadlardan qalan adətlərimiz bu gün də yaşamaqdadır. Ata-baba ruhuna hörmət əlaməti olaraq bir nümunəyə baxaq: 30 ilə yaxın düşmən tapdağında qalan rayonlarımızda narahat olan ata-baba ocaqlarımız var. Onların xələfləri həmişə deyirlər: ata-babalarımızın bizlərdən ayrı goru çatlayır. Ata-baba dediyimiz müqəddəs məkandır. Bizim and və güvən yerimiz, dərdimizə sirdaş olan müqəddəs əcdad ocağıdır. Ali Baş Komandanımızın Şuşa alınarkən atasının qəbrini ziyarət etməsi ata kultuna hörmətin ən əsas nümunəsidir: "Mən xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdim. Ulu öndərin ruhu şaddır bu gün. Gözün aydın olsun, Azərbaycan" [15].

Böyük və ulu olan əcdadlara münasibət bizim istər toy, istərsə də yas adətlərimizdə özünü qoruyub saxlayır. "Novruz bayramında xüsusilə qəbirləri ziyarət etmənin əsas səbəbi, sözsüz ki, ata kultu ilə bağlıdır. Türkiyəli tədqiqatçı Yaşar Kalafat Novruzla bağlı araşdırmasında belə nəticəyə gəlmişdir ki, Novruz bayramını qeyd etməyin səbəbi Ulu Tanrı və atalarımızın ruhlarının qarı, buzu əritməsidir" [5, s.93].

Bu inam istər məişət, istərsə də mövsüm mərasimlərində özünü göstərir. Azərbaycanın şimal bölgəsində – Zaqatala, Qax və Balakənin kəndlərində bu gün də qızı ata evində, həyatı işıqlı olsun deyə, evdə ata yoxdur deyə, böyük qardaş üç dəfə lampa ətrafında dolandırır, evdən çıxarkən, gəlin maşınına minməzdən öncə evin və nəslin ağsaqqalları ilə el ağsaqqalları birgə "Fatihə" oxuyur, xeyir-dua verərək gəlini bəy evinə yola salırlar.

Bundan başqa, Zaqatalanın Qımır, Bazar, Çobankol kəndlərində vaxtı ilə açıq hava altında toylar təşkil olunardı. Hamı gələr, ev yiyəsinə, evin, nəslin ağsaqqalına gözaydınlığı verərdi. Elin ağsaqqallarından ibarət münsiflər yığılardı. Elin, obanın gəncləri arasında yarışlar keçirilərdi. Kim qalib gəlirdisə, o da elin ağsaqqa-

ları tərəfindən mükafatlandırılardı. Heç kim ağsaqqalların verdiyi qərara qarşı çıxa bilməzdi. Elin ağsaqqalına inam əcdad ruhunun şad olmasına inamdan irəli gəlirdi. Əcdad kultuna daxil olan Ata amili, Ata kultu insanın ailəsinə, yuvasına, evinə bağlılığın əsas elementidir. Əcdad kultunda əsas xətti ata-oğul münasibətləri tutur. Burada bir tək Oğuz xaqanın oğlanlarını və nəsil davamçılarını nümunə göstərmək yetərlidir. Oğuz xaqan dastanında böyüklərə münasibət baxımından 2 məqama diqqət edək. Birincisi, Oğuz xaqan fəth etdikləri ərazilərdə oğlanların doğru-düzgün, ədalətli qanunlar verdikləri, atalarının qaydası ilə getdikləri üçün onları alqışlayır. Deyir ki, "Mənim sağlığımda belə böyük və gərəkli işlər görüb adınızı bəlləndirməyiniz göstərir ki, mən öləndən sonra siz mənim yerimi tutmağa layiqsiniz" [4, s.24]. Oğuz oğlanlarının gözəl işlər tutduqlarını, onların kamillik və səadət nişanələrini görüncə onların şərəfinə toy qürur, qızıl təxt verir, dəyərli xələt verir [4, s.29]. Burada ata-oğul xətti, Oğuz ənənəsinə sadiqlik, böyüklərin qoyduqları nizamı qorumaq, ənənəyə sadiqliq, böyük sözünü dinləmək, ulu babaya hörmətlə yanaşmaq, qoyduğu nizamı pozmamaq kimi güclü bir anlam durur.

Oğuzun oğlanları atalarının qoyduqları qanunlarla gedirdilər. Gün xandan sonra taxta çıxan Dib Yavqu xan bəylərdən, ululardan və divan adamlarından soruşdu ki, cəddimiz oğuz bu qədər ölkələri necə tutmuş, hardan haraya qədər almışdır. Ağsaqqallardan iki nəfər önə çıxaraq, gündoğandan günbatana qədər bütün ölkələri sənin ata babaların tutmuşdur, – dedilər [4, s.41]. Buradan göründüyü kimi, Oğuzdan sonra onun nəslinin davamçıları belə, onun qoyduğu yolla gedirlər. İkinci bir məqam isə Oğuz oğlanlarının ataları kimi, elin ağsaqqallarına hörmət və qayğı ilə yanaşması, onlara böyük dəyər verməsi ilə bağlıdır. Eləcə də dünyaya hakim olmaq, fəth etdikləri ərazilərdə möhkəmlənmək, dövlətçilik siyasəti, yurdqoruma amili əsas xətt kimi götürülür. Seyfəddin Rzasoy doğru olaraq Oğuz xaqanı Oğuz türklərinin ulu əcdadı hesab edir. Müəllif eyni zamanda "Bütün məkan və zaman öz başlanğıcını sakral əcdad Oğuz kağandan gotürüldüyünü vurğulayır" [9, s.106].

Əcdad – Azərbaycan xalqının qan yaddaşıdır, torpağa, ulu vətənə, dövlətə, dövlətçiliyə, milli olan hər şeyə yüksək sevginin təzahürüdür. Əcdad mənim, sənin olanı özgələrə pay verməmək hissi, onu özününkü olaraq nəsildən-nəslə, əsrdən-əsrə ötürmək ənənəsidir. Əcdad soykökə, nəslə, kökə, bir xalqın tarixi keçmişinə bağlı müqəddəs dəyərdir. Yaxşı olar ki, bugünkü nəsillər özündən əvvəlki ulu babalarını, 7 arxa dönənini tanısın. Çox təəssüf ki, bu gün həmin adətlərin bəziləri artıq sıradan çıxmışdır. Əslində, ulu babalarını tanıyanların elini, yurdunu düşmən basmaz, tarixi keçmişinə heç vaxt sahiblənə bilməz.

Odur ki, Əcdad kultunun insan paradiqması kimi başlanğıcda Ata kultu dayanır.

Ata nəsil artıran, ilkin başlanğıcda duran başlıca kultdur.

Antropomorf olaraq təsəvvür edilən Bozqurd Türk xalqlarında olduğu kimi, Azərbaycan mifologiyasında da yardımçı və xilaskarlıq funksiyalarını əks etdirmişdir. Təbiət paradiqmasına daxil olan dünya ağacı isə ulu ağacdır ki, ilkin yaradılışda müəyyən onun payı vardır.

## Nəticə / *Conclusion*

Göründüyü kimi, xalqımız tarix boyu bütün adət və mərasimlərində əcdad ruhuna hörmətlə yanaşmış, böyük sözünü, böyük nəsihətlərini dinləmişdir. Əgər tarixi keçmişi dansaq və unutsaq, o keçmiş bizim olmaqdan çıxar, düşmənin olar. Əcdad dediklərimizə hörmət, əcdad statusu aşağıdakılarla şərtlənir:

– Əcdadlar o dünya ilə bu dünya arasında moderator rolunu oynayır.

– Əcdad qurur, yaradır, qurub yaratdığını gələcək nəsillərə ötürməyi bacarır.

– Əcdadlara hörmət ata-baba ruhunu yad etməkdən başlayır.

– Azərbaycanın mərasim folklorunda ağsaqqalın böyük kimi yeri əvəzsizdir.

– Ağsaqqala münasibət, ata ruhuna hörmət, ulu əcdadlara qoyulan hörmət qədər dəyərlidir. Bu müqəddəs missiyanı xalqımız hər zaman uca tutmuş, böyüyə, ulu babalarına hörmət qoymağı milli mənəvi dəyərlərdən hesab etmişlər.

Bu dəyərləri hər zaman qorumaq isə bütün azərbaycanlıların mənəvi borcuna çevrilməlidir.

**Ədəbiyyat / *References***

1. Aşıq Mədət Ömərov. Dərya kimi dolan könlüm (toplayıb tərtib edəni: Zümrüd İbrahim Mənsimova). – Bakı: Elm, 2019. – 400 s.
2. Baxşəliyev, V. Naxçıvanın qədim əkinçi-maldar tayfalarının mənəvi mədəniyyəti (e.ə. VI-I minilliklərə aid arxeoloji abidələr əsasında). – Bakı: Elm, 2004. – 320 s.
3. Əbdülqazi, Bahadır xan. Şəcərei-Tərakimə. Türklərin soy kitabı. Rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi: İ.M.Osmanlı. – Bakı: Azərbaycan Milli Ensiklopediyası. Nəşriyyat-Poliqrafiya Birliyi. – 140 s.
4. Fəzlullah, Rəşidəddin. Oğuznamə. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı. – 72 s.
5. Kalafat, Y. Altaylardan Anadoluya Kamizm, Şamanizm. – İstanbul: Yeditepe yayınevi, 2004. – 154 s.
6. Qarabağ: Folklor da bir tarixdir, I 2012: 48.
7. Seyidov, Mirəli. Azərbaycan xalqının soykökünü düşünərkən. – Bakı, 2018. – 444 s.
8. Rzasoy, Seyfəddin. II Uluslararası Mersin Konfransı. Bildiri tam metinleri kitabı. Kitab-2. – Mersin: Mer Ak Yayınları, 2019.
9. Rzasoy, Seyfəddin. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst. – Bakı: Nurlan, 2008. – 188s.
10. Suqra Həsənova Rəhim qızı, 1928-2014, Göyçə mahalının Şişqaya kəndi.
11. S.Musaev, Semetey, Seytek, Bişkek, Kırğısıstan Basması,1995.

**İnternet resursları**

12. http://www.folklor.az/383.htm.
13. https://www.xalqcebhesi.az/news/literature/24050.html).
14. https://www.academia.edu/59081386/Az%C9%99rbaycan_Multikulturalizmi
15. https://www.youtube.com/watch?v=l0TjSECW1gg
16. Naxçıvan diyarinda ata kultu və atanin yer. File:///C:/Users/windows/Desktop/793856(meqale).pdf
17. https://anl.az/down/meqale/xalqcebhesi/2017/noyabr/563844.htm

## Культ предков в азербайджанском фольклоре

**Зумруд Мансимова**
Отдела общественных наук НАНА
E-mail: zumrudibrahimqizi@gmail.com

**Резюме.** В статье исследуется проявление уважения азербайджанского народа к духу предков, слову предков. Рассматривается значение слова «старейшина», занимающего большое место в азербайджанском обрядовом фольклоре и обычаях. В статье для узнавания предков одним из важных условий считается знание молодыми людьми каждого поколения 7 поворотов назад. Вера в слово «старейшина» отражена в традициях азербайджанского народа. При необходимости указанные идеи подкрепляются коллекционными примерами. Кроме того, была определена связь между старейшим культом и исследуемым предком. Изучены функции, связанные со словом «культ».

В статье также рассматривается место и роль культа предков в старинных поговорках, народной мудрости, пословицах. Отношение к культу предков исследовано в мифах, произведениях ашугов и в целом в фольклоре Азербайджана. Отношение нашего народа к культу предков сохранилось в отношении и вере к отцовским (родовым) очагам, находившимся под оккупацией почти 30 лет.

**Ключевые слова:** культ предков, родители, национальная ценность, Огуз хан, традиции